VÜSAL QASIMLI

# İQTİSADİ ARTIM

Post-konflikt və
Post-pandemiya dövrü:
Çağırışlar və
Həllər

VÜSAL QASIMLI

# İQTİSADİ ARTIM

BAKI-2021

## ÖN SÖZ

➤ Adam Smitdən başlayaraq günümüzə qədər verilən "niyə dövlətlərin gəlir səviyyələri fərqlidir?" sualına yekcins cavab yoxdur. Bəlkə də buna görədir ki, Adam Smitin yaşadığı dövrdə ən varlı və ən kasıb ölkələrin hər nəfərə düşən gəliri cəmi dörd dəfə fərqlənirdisə, indi ən varlı Monako və ən kasıb Burundinin hər nəfərə düşən ÜDM həcmləri 711 dəfə fərqlənir! Başqa sözlə, Burundinin adambaşına gəlirini iki dəfə artıranda Madaqasqar, Madaqasqarın adambaşına gəlirini iki dəfə artıranda Nepal, Nepalın adambaşına gəlirini iki dəfə artıranda Qana, Qananın adambaşına gəlirini iki dəfə artıranda İordaniya, İordaniyanın adambaşına gəlirini iki dəfə artıranda Kuba, Kubanın adambaşına gəlirini iki dəfə artıranda Latviya, Latviyanın adambaşına gəlirini iki dəfə artıranda Yaponiya, Yaponiyanın adambaşına gəlirini iki dəfə artıranda İsveçrə və nəhayət İsveçrənin adambaşına gəlirini iki dəfə artıranda Monakonun səviyyəsinə çatmaq olar. 2019-cu ildə yüksək gəlirli ölkələrdə adambaşına ÜDM 44 613 dollar, yuxarı orta gəlirli 9 014 dollar, orta gəlirli 5 562 dollar, aşağı orta gəlirli ölkələrdə 5 071 dollar və aşağı gəlirli ölkələrdə 810 dollara bərabər olmuşdur. Gəlir fərqləri təkcə dövlətlərin deyil, insanların, şirkətlərin və cinclərin də arasında artır. OXFAM-ın hesablamlarına görə, dünyanın ən varlı 1 faiz əhalisinin sərvəti 6,9 milyard insanın sərvətindən iki dəfə daha çoxdur.

İqtisadi artıma klassik yanaşmanı təqdim edən A.Smit və D.Rikardo istehsalın üç əsas amilini müəyyənləşdirirdilər: əmək, kapital və torpaq. Sonralar Romer və başqaları bu sıraya texnologiyanı, Rodrik, Robinson və başqaları institutları, nəhayət Lixt də daxil olmaqla bir sıra alimlər isə mədəniyyəti əlavə etdi. Hələ vaxtilə, İbn Xəldun cəmiyyətdə mənəvi dəyərləri inkişafın əsası kimi qəbul edirdi.

Bu kitabda müxtəlif modellər, o cümlədən, Solou artım modeli, neoklassik model, endogen texnoloji dəyişmələr, stoxastik artım kimi yanaşmalardan istifadə edərək iqtisadi artımın mahiyyəti izah olunur. İqtisadi artıma təsir göstərən ənənəvi amillərlə yanaşı, mədəni müxtəliflik, narrativ və sosial kapital kimi faktorların da iqtisadi inkişafda roluna toxunulmuşdur.

Jared Diamond iqtisadi inkişafda coğrafi determinizmi əsas kimi götürür və buna görə də dünya tarixində ilk aqrar təsərrüfatın əlverişli

təbii şəraiti olan Yaxın Şərqdəki “Bərəkətli Aypara” ərazisində olduğunu önə çəkir. Hausman, Pritçett və Rodrik 2005-ci ildə yazdıqları “Artımın sürətlənməsi” məqaləsində iqtisadi siyasət, institutsional yanaşma, siyasi şərtlər və xarici mühitin iqtisadi artıma statistik əhəmiyyətli təsirini tam sübut edə bilmədilər, beləliklə, müəlliflər gələcək araşdırmalara ümid bağladılar. Sonradan Hausman, Rikardo və Velasko “Artım diaqnostikası” məqaləsində analitik çərçivə yaradaraq hər bir ölkədə iqtisadi artıma mane olan əsas səbəbləri müəyyənləşdirməyə imkan verən alət formalaşdırdılar və belə qənaətə gəldilər ki, islahatlar iqtisadi artıma mane olan əsas məhdudiyyətləri hədəf almaqla uğurlu ola bilər. Rus yazıçısı Lev Tolstoy “Anna Karenina” əsərində qeyd edirdi ki, “bütün xoşbəxt ailələr bir-birinə oxşayır, hər bir bədbəxt ailə isə özünəməxsus bədbəxtdir”. İqtisadiyyatlar da belədir: hər bir ölkənin iqtisadi artımı üçün özəl yanaşması olmalıdır.

Nobel mükafatı laureatı Ester Duflo “İqtisadçı santexnik olaraq” məqaləsində yazırdı ki, iqtisadçılar hökumətlərə getdikcə daha çox yeni siyasət və qaydalar hazırlamağa kömək etdikləri üçün onlar dövlət siyasətinin təfərrüatlarına varırlar və bununla da bir santexnik yanaşması təqdim edirlər. Çünki nəzəri yanaşmalar kifayət etmədiyindən, santexnik gerçək dünyada nəyin işləyə biləcəyini yaxşı bilir. İqtisadçı da nəzəri hazırlıqla yanaşı, həm də praktik bacarıqlara sahib olmaldır ki, siyasət qərarları düzgün verilsin. Ötən əsrin 60-cı illərində belə fikir vardı ki, “Standard Oil”, Kommunist Partiyası və Katolik kilsəsi ən yaxşı planlaşdırılan və idarə olunan təşkilatlar idi: gələcəyi necə planlaşdırırdılarsa elə də olurdu. Sonradan strateji idarəetmə önə çıxdı. Müasir dünyada isə makro səviyyədə təkcə planlamaqla deyil, eyni zamanda, günün tələbinə və gələcəyin çağırışına uyğun elastiki və çevik (agile) yanaşma önəmlidir. Hətta biznes səviyyəsində də McKinsey şirkəti “təkmilləşdirici menecment”lə (lean management) çevik yanaşmanın vəhdətini tövsiyyə edir.

Son 40 ildə davranış iqtisadiyyatının görkəmli nümayəndələri Daniel Kahneman, Robert Shiller, Richard Thaler, Angus Deaton, George Loewenstein və başqaları klassik nəzəriyyənin təməlində dayanan - fərdlərin rasionallığı prinsipinə qarşı çıxırlar. Davranış iqtisadiyyatı insanların qərar qəbul etməsi və iqtisadi davranışlarında psixologiyanın, həmçinin rasional, qavrama və emosional proseslərin arasındakı

münasibətlərin rolunu önə çəkir. Hətta bəziləri hesab edir ki, insanlar tərəfindən qəbul edilən qərarların 70 faizi emosional və 30 faizi rasional əsaslıdır. Gallup-ın tədqiqatları iqtisadi artıma yeni rəng qatıb: davranış iqtisadiyyatı yüksək artım və gəlirliliyin təmin edilməsində mühüm rol oynayır. Belə ki, davranış iqtisadiyyatı prinsiplərini tətbiq edən şirkətlər satışın artımında öz rəqiblərindən 85 faiz və ümumi mənfəətdə isə 25 faiz daha yaxşı nəticə göstərirlər. Gallup-ın tədqiqatları göstərir ki, "Altı Siqma" və "təkmilləşdirici menecment"ə (lean management) nisbətən davranış iqtisadiyyatı daha çox "aşağıda asılmış meyvə"ləri dərmək imkanına malikdir. Gallup biznes liderlərinə insan təbiətini başa düşməklə real artımı necə həyata keçirməyi öyrədir.

Avropa Komissiyasının təklif etdiyi Süni İntellekt Qanunu süni intellektin tətbiqinə dair yeni tələblər müəyyən edəcəkdir. Süni intellekt təkcə insan ağılını deyil, həm də emosiyaları nəzərə almaqla yeni mərhələdə və miqyasda tətbiq edilməklə, iqtisadi münasibətlərə yeni ton verəcəkdir. Bu arada Dördüncü sənaye inqilabının məşğulluğa mənfi təsiri barədə deyilənlərlə razılaşmaq mümkün deyil. Çünki əvvəlki üç sənaye inqilabı vaxtı da belə narahatçılıqlar özünü doğrultmamışdı. Hətta 90 il əvvəl Con Meynard Keyns yazırdı ki, “əməkdən istifadədə qənaətin mümkün yollarını kəşf etmə sürətimiz onun üçün yeni istifadə yolları tapma sürətimizi ötür.” Amma böyük iqtisadçının da ehtimalları özünü doğrultmadı. Əlbəttə, dördüncü sənaye inqilabı zamanı bir sıra ixtisaslara ehtiyac aradan götürüləcəksə də, yenilərinə tələb də yaranacaq. İqtisadi artımı məhz yeni ixtisaslı əmək qüvvəsinə malik ölkələr daha yüksək trayektoriyada təmin edə biləcəklər.

Dünyada rəqəmsal erada beşinci nəsil geo-texnoloji rəqabət mövcuddur. Rəqabət aparmaq üçün hər bir ölkə 5G texnologiyalardan istifadə etməklə dövlət hakimiyyətinin alətlərini gücləndirir; 5G texnologiyasının hökümət, biznes və istehlakçılar tərəfindən istifadəsini stimullaşdırır; milli səviyyədə 5G texnologiyalarını avadanlıq, proqram təminatı və rəqəmsal xidmətlərdə inkişaf etdirir. Artıq Estoniya Real vaxt rejimində işləyən iqtisadiyyat strategiyasını həyata keçirir.

2013-cü ildə müəllifinə Nobel mükafatı qazandıran Hiqs sahəsi (Higgs field) ideyası yaşıl iqtisadi artım siyasətini əsaslandırır. Ehtimala görə Hiqs sahəsi bu sahədən keçən hissəciklərə kütlə verir və beləliklə, enerji kütləyə çevrilir. Bu zaman təbii ahəng qorunur. Yaşıl iqtisadi inkişaf da elə

bir ahəngi təmin etməlidir ki, resurslardan mal və xidmətlər istehsal ediləndə təbii harmoniya pozulmasın.

BMT İnkişaf Proqramı çərçivəsində aparılan tədqiqatda göstərilir ki, iqtisadi artım istehsal amillərinin kəmiyyət dəyişməsi ilə bağlı olduğu halda, iqtisadi inkişaf anlayışı daha geniş bir məfhum kimi istehsal amillərində mütərəqqi keyfiyyət dəyişikliklərini nəzərdə tutur. İstehsal amillərinin keyfiyyət dəyişikliyi də öz növbəsində texnoloji tərəqqi, insan kapitalının inkişafı və məhsuldarlıq artımı ilə bağlıdır. Əslində iqtisadi artım özlüyündə məqsəd deyil, son məqsəd insanların rifahı və layiqli həyatıdır.

İqtisadi artımı əngəlləyən problemin dekonstruksiyası, yəni detallarına qədər xırdalanması vacibdir. Yaponların "beş niyə sualı" və ya "balıq skeleti" metodları ilə problemin daxilinə nüfuz etmək mümkündür. Məhz bu yolla problemlərin kök səbəblərini tapıb müalicə etməklə Toyota öz istehsalını demək olar ki, qüsursuz səviyyəyə çatdıra bilmişdi. Dövlət, biznes və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "müzakirə şura"ları (deliberation council) dəyər zənciri üzrə problemləri xırdalığına qədər aça bilər. Asiyadakı "iqtisadi möcüzə" göstərən ölkələrin təcrübəsi "müzakirə şura"larının effektivliyini sübut edib. 200-ə qədər "müzakirə şura"sı olan Yaponiyada hətta sumo güləşinin problemlərini çözən şura da fəaliyyət göstərir. Steykholder kapitalizminin ruhuna uyğun olaraq bütün maraqlı tərəflərin cəlb olunduğu müzakirələrdə iqtisadi problemlərə dəqiq diaqnoz qoymaq imkanları var. İqtisadi artımın problemlərini müəyyənləşdirəndən sonra, haradan başlamaq sualına cavab vermək üçün "3 A" (Authority, Acceptance, Ability) yanaşması tətbiq edilə bilər. Birincisi, iqtisadi artımın təmin edilməsi üçün səlahiyyətin (authority) olması vacibdir, daha sonra bütün maraqlı tərəflərin problemi başa düşərək icra etməsi (acceptance), bir növ sahiblik hissinin formalaşdırılması, üçüncüsü isə, imkanların (ability) olması şərtdir.

"İqtisadi artım" kitabının "Dan ulduzu" Azərbaycandır. Kitab nə qədər ümumi nəzəri və praktik məsələləri, habelə qlobal trendləri təhlil etsə də, yenə də Azərbaycanın orbitindən çıxmır. Əslində iqtisadi artım problemi hər bir ölkədə özünəməxsusdur, təkrarolunmazdır və iqtisadi artım "resept"i də fərqlidir.

Müstəqilliyinin 30 ili ərzində Azərbaycan iqtisadiyyatı üç dəfədən də çox böyüməklə regionda iqtisadi, siyasi və hərbi üstünlüyümüzün maddi əsasını təmin etdi, ən islahatçı ölkə statusuna yüksəldik, rifah yaxşılaşdı və ərazi bütövlüyümüz bərpa olundu, həmçinin, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində mühüm haba və mədəniyyətlərarası dialoq məkanına çevrildi. Qarşıdakı hədəf növbəti 10 ildə Azərbaycan iqtisadiyyatını daha iki dəfə böyütmək və dövlət və cəmiyyət olaraq əldə etdiyimiz nailiyyətləri daha da möhkəmləndirməklə, yeni uğurlara imza atmaqdır. Bunun üçün iqtisadi artımın yüksək trayektoriyaya keçməsi İsrailin sabiq baş naziri Qolda Meyerin dediyi kimi "alternativsiz seçim"imizdir. İqtisadi artım və digər amillər arasında səbəb-nəticə əlaqələri olmaqla bir-birinə təsir edir, lakin bir həqiqət aydındır ki, Ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Prezident İlham Əliyevin rəhbərliyi ilə institutsional islahatlar elektron hökumətin inkişafını, "One-stop-shop"dan "Non-stop-shop"-a keçidi, "Only one entry" prinsipini, reaktiv xidmətlərdən proaktiv xidmətlərə transferi, yığcam, mobil və məqsədyönlü idarəetməni stimullaşdırır. Eyni zamanda dövlət idarəetmə islahatları məcburetmədədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə, məmur-sahibkar təmaslarından rəqəmsal həllərə, fəaliyyət-əsaslıdan nəticə-əsaslıya və "kölgə iqtisadiyyat"dan leqallaşmaya keçidi təmin edir. Dövlət idarəetmə aparatının islahatları dövlət-özəl dialoqunu və dövlət-vətəndaş dialoqunu daha da irəli aparacaq. Bu çərçivədə dövlət müəssisələrində və özəl sektorda idaəetmə islahatları, o cümlədən korporativ standartların tətbiqi üçün yeni imkanlar yaranıb. Məhkəmə hakimiyyətində aparılan islahatlar isə özündə elektron məhkəmənin inkişafını, ədalət mühakiməsinin keyfiyyətinin artırılmasını, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılmasını, məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsini, humanistləşdirmə və dekriminallaşdırmanı, vəkillik institutunun inkişafını, məhkəmənin maddi-texniki bazasının gücləndirilməsini, məhkəmə ekspertizası işinin daha da təkmilləşdirilməsini ehtiva edir. Dövlətin iqtisadiyyatda rolunun optimallaşdırılması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların

çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması, habelə qlobal dəyər zəncirlərinə qoşulma iqtisadi artımın təməl amilləri olacaq. Strateji yol xəritələrində qeyd edildiyi kimi, davamlı inkişafı təmin edəcək yeni "avanqard" sektorların üzərində fokuslanmaqla, iqtisadiyyatın strukturu qeyri–ticari bölməyə nisbətən ticari bölmənin, hasilata nisbətən emalın, dövlət sahibkarlığına nisbətən özəl sahibkarlığın, aşağı texnologiya tutumlu sektorlara nisbətən yüksək texnologiyalara əsaslan sektorların, aşağıixtisaslı əməyə nisbətən yüksəkixtisaslı əməyə əsaslanan sahələrin, azgəlirli bazarlara nisbətən yüksəkgəlirli bazarların və aşağı dəyər yaradan sektorlara nisbətən yüksək dəyər yaradan sektorların daha üstün artımı hesabına yenidən balanslaşa bilər.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə əsasən milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Bu kitabda iqtiadi artımın fəlsəfəsi açılmaqla yanaşı, Azərbaycan təcrübəsi və həll ssenarilərinə də toxunulur. Bir sözlə, Azərbaycan məsələsi “İqtisadi artım” kitabı boyunca öz süjet xəttini qoruyur. Hətta kitabın təqdimatı da “2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası”, Qarabağın inkişafı strategiyası və Rəqəmsal transformasiya konsepsiyası kimi Azərbaycanın inkişaf xəttini müəyyənləşdirən mühüm sənədlərin hazırlanması dövrünə təsadüf edir.

“İqtisadi artım” kitabı yuxarıda sadalanan nəzəri-konseptual və praktik məsələləri əhatə etməklə, makro, mezo və mikro səviyyədə iqtisadi böyümənin mahiyyətini açır və müvafiq tövsiyyələri təqdim edir.

Ümid edirik ki, “İqtisadi artım”dan zövq alacaqsınız!




**Vüsal Qasımlı**
İqtisad elmləri doktoru, professor

Vüsal Əfras oğlu Qasımlı 2016-cı ilin may ayının 2-dən Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı əsasında yaradılmış İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorudur. O, 2005-2007-ci illərdə ANS-Press Nəşriyyat Evinin prezidenti olmuşdur. 2007-2011-ci illərdə Avropa İttifaqı, Dünya Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (JİCA) və bir sıra beynəlxalq qurumların həyata keçirdiyi layihələrdə çalışmışdır.

2011-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2015-ci ildə Vüsal Qasımlı Böyük İyirmiliyin beyin mərkəzlərinin T20 platformasında Azərbaycanı təmsil etmişdir. O, 2016-cı ildə Asiya İnkişaf Bankının iqtisadi inkişaf məsələləri üzrə məsləhətçisi olmuşdur.

Vüsal Qasımlı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamı ilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın üzvü təyin edilmişdir. O, 2021-ci ildə BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) milli koordinatoru təyin olunub.

Prezident İlham Əliyev Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində fərqləndiyinə görə 2018-ci ildə Vüsal Qasımlını "Tərəqqi medalı" ilə təltif etmişdir.

2012-ci ildə o, Astana İqtisadi Forumunun və Avrasiya Alimlərinin İqtisadi Klubunun mükafatını almışdır.

V.Qasımlı 1993-cü ildə ən yüksək balla Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olaraq ali təhsil alıb. Onun ikinci ixtisası 2004-cü ildə Gürcüstan İctimai Əlaqələr İnstitutundan aldığı jurnalistika üzrə magistr dərəcəsidir. Vüsal Qasımlı 2013-cü ildə Koreya Beynəlxalq İqtisadi Siyasət İnstitunda qonaq alim olaraq çalışmışdır. O, 2009-cu ildə iqtisad üzrə fəlsəfə doktoru, 2017-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi, 2013-cü ildə dosent elmi adı almışdır. 2010-2014-cü illərdə V.Qasımlı UNEC-də Xüsusi İstedadlar Qrupu və MBA proqramı üzrə pedaqoji fəaliyyətlə məşğul olub. V.Qasımlı 2021-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor vəzifəsində çalışır.

O, həmçinin Harvard Universiteti Kennedi İdarəçilik Məktəbində "İqtisadi artımın idarə edilməsi" xüsusi proqramı üzrə təhsil almışdır.

V.Qasımlı Vaşinqton Universiteti, Kaliforniya Universiteti, Qahirə Amerika Univeristeti, Varşava Universiteti, Seulun Hanyan və Hankuk universitetləri və Rio-de-Janeyro Universitetində ictimai mühazirələr oxumuşdur.

Onun Azərbaycan, rus, koreya və ingilis dillərində 10 kitabı və 500-ə qədər elmi və publisistik məqaləsi var. Vüsal Qasımlının 10 kitabı Azərbaycanda, Türkiyədə, Almaniyada və İtaliyada nəşr edilmişdir. V.Qasımlı Azərbaycan, ingilis, rus, türk və ispan (elementar səviyyədə) dillərini bilir. Milliyətcə azərbaycanlıdır. Ailəlidir və üç övladı var.